*Azərbaycan Respublikası təhsil*
*nazirinin 28 avqust 2017-ci il tarixli,*
*258 nömrəli əmrinə 2 nömrəli əlavə*

**Tədris planına dair qeydlər**

Ölkənin 50 ümumi təhsil müəssisəndə həyata keçirilən “Rus dilinin intensiv tədrisi” layihəsinin davam etdirildiyi I-IX siniflərdə rus dilinin tədrisi məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinin 28 iyul 2017-ci il tarixli, 226 nömrəli əmri ilə təsdiq olunmuş “Ümumtəhsil məktəblərinin 2017-2018-ci dərs ilinə aid tədris planlarına dair qeydlər”ə aşağıdakı bəndlər əlavə olunur:

1. I-IV (birinci-dördüncü) siniflərdə dərsdənkənar məşğələlərə ayrılan saatlar dərs cədvəlinə daxil edilməklə rus dilinin intensiv tədrisinə verilmişdir.
2. V-VII (beşinci-yeddinci) siniflərdə ikinci xarici dilə və dərsdənkənar məşğələlərə ayrılan 1 (bir) saat, VIII-IX (səkkizinci-doqquzuncu) siniflərdə ikinci xarici dilə ayrılan 1 (bir) saat və dərsdənkənar məşğələlərə ayrılan 2 (iki) saat dərs cədvəlinə daxil edilməklə rus dilinin intensiv tədrisinə verilmişdir.
3. “Rus dilinin intensiv tədrisi” layihəsi həyata keçirilən I-IX (birinci-doqquzuncu) siniflərdə rus dili fənninin tədrisinin səmərəli təşkili məqsədilə sinifdə şagirdlərin sayı 20 (iyirmi) və daha çox olarsa, həmin fənnin tədrisində siniflər iki qrupa bölünür (dərsdənkənar məşğələlərdən verilən saatlar istisna olmaqla).